# Yazıçılar Birliyində ölkəmizdə səfərdə olan qonaqlarla görüş keçirilib



Sentyabrın 5-də Azərbaycan Yazıçılar Birliyində "Azərbaycanım" jurnalının 20 illik yubileyi və "Qərbi Azərbaycan və Qarabağ Ensiklopediyası"nın təqdimat mərasiminə dəvət olunmuş xarici qonaqlarla görüş keçirilib. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar qonaqları salamladıqdan sonra onlara Yazıçılar Birliyinin tarixi və fəaliyyəti ilə bağlı ətraflı məlumat verib. Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu qonaqları təqdim edib. Səlim Babullaoğlu Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçilən Qırğızıstan Yazıçılar Birliyinin sədri Kanıbek İmanəliyevi, qırğız yazıçı, Azərbaycan dilində nəşr olunan "Dərviş" romanının müəllifi Begican Əhmədovu təbrik edib. Xalq yazıçısı Anar üzvlük vəsiqələrini təqdim edib və bu münasibətlə yazıçıları təbrik edib. Hər iki yazıçı Yazıçılar Birliyinin rəhbərliyinə təşəkkürlərini bildirib. Kanıbek İmanəliyev Xalq yazıçısı Anarın Qırğızıstan Yazıçılar Birliyinə fəxri üzv seçildiyini bildirib və Yazıçılar Birliyinin vəsiqəsini təqdim edib. Görüşdə iştirak edən millət vəkili, Beynəlxalq Mahmud Qaşqari Fondunun sədri Cavanşir Feyziyev ədəbi mədəni əlaqələrdən söz açıb. O, bu əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın daim təşəbbüslərlə çıxış etdiyini və ölkəmizdə mütəmadi olaraq müxtəlif beynəlxalq tədbirlərin həyata keçirildiyini qeyd edib. Millət vəkili qırğız yazıçılar Kanıbek İmanəliyev və Begican Əhmədovun Mahmud Qaşqari mükafatına layiq görüldüyünü elan edərək onları bu munasibətlə təbrik edib və mükafatları təqdim edib.

Yazıçı, publisist, "Azərbaycnım" jurnalının baş redaktoru, "Qərbi Azərbaycan və Qarabağ Ensiklopediyası"nın tərtibçisi Emil Nəsirli görüş üçün AYB rəhbərliyinə minnətdarlığını bildirib. O, "Qərbi Azərbaycan və Qarabağ Ensiklopediyası"nı Xalq yazıçısı Anara təqdim edib.

Çıxış edən Moldova İctimai Palatasının sədri, ictimai-siyasi xadim Aureliya Qriqoriu, Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumunun vitse-prezidenti Anara Nasirova, Özbəkistan Xalq yazıçısı, Qaraqalpaqıstan Yazıçılar Birliyinin sədri Kenes Kərimov, Qazaxıstan Milli Elmlər Akademiyasının akademiki, şair, Qazaxıstan Yazıçılar Birliyinin sədrinin birinci müavini Jakıp Baurjan ölkəmizdə səfərdə olmaqdan məmnunluqlarını ifadə ediblər və görüş üçün Yazıçılar Birliyinin rəhbərliyinə minnətdarlıqlarını vurğulayıblar. Sonda xatirə şəkilləri çəkilib.

AYB.az